# II BÖLMƏ
# SOSİAL-İQTİSADİ PROBLEMLƏR

*Səbinə Abdulla qızı CUMAZADƏ*
*ATMU, “Menecment” kafedrası, doktorant, müəllimə;*

*Aygün Nazim qızı TƏHMƏZLİ*
*AMEA-nın İqtisadiyyat İnstitutu, doktorant*

## SOSİAL-İQTİSADİ İNKİŞAF VƏ ONUN TƏMİN OLUNMASI YOLLARI

*Xülasə*

**Tədqiqatın məqsədi:** Tədqiqatın əsas məqsədi sosial-iqtisadi inkişaf anlayışının mahiyyətini müəyyənləşdirmək və davamlı olaraq bu inkişafa nail olmağın əsas həll yollarını tapmaqdan ibarətdir.

**Tədqiqatın metodologiyası:** Tədqiqat həyata keçirilərkən kəmiyyət indikatorlarından daha çox keyfiyyət göstəricilərindən istifadə olunmuşdur. Tədqiqat aparılarkən analiz və sintez metodları əsas götürülmüşdür.

**Tədqiqatın tətbiqi əhəmiyyəti:** Azərbaycan da daxil olmaqla, bütün ölkələrin inkişaf strategiyalarının hazırlanmasında sosial-iqtisadi inkişafın təmin olunması yollarının müəyyənləşdirilməsi vacib rol oynayır. Çünki inkişaf artım, bərabərsizliyin azalması, yoxsulluğun qarşısının alınması və məşğulluğun artırılması kimi köklü dəyişmələrə yol açan çoxmiqyaslı bir prosesdir. Məhz bu səbəblərdən aparılmış tədqiqat işi böyük əhəmiyyətə malikdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi:** Sosial-iqtisadi inkişaf məsələsi daima diqqət mərkəzində olmasına və vacib məsələ olmasına baxmayaraq sosial və iqtisadi inkişaf anlayışlarının bir-birindən fərqləndirilməsi və asılılığın üzə çıxarılması tədqiqatın orijinallığının göstəricisidir.

**Tədqiqatın nəticəsi:** Tədqiqatın nəticəsi olaraq cəmiyyətdəki hər seqmentin həyat standartının yaxşılaşdırılması, ayrı-seçkilik edilmədən inkişafın təmin edilməsi üçün səhiyyə, bilik, təcrübə, təhsil kimi məsələlərə xüsusi diqqət ayrılması, keyfiyyətli təhsil, səhiyyə xidmətlərinə əlçatanlığın təmin olunması vacibliyinin qənaətinə gəlinmişdir.

***Açar sözlər: sosial inkişaf, iqtisadi artım, insan inkişafı, təhsil, rifah səviyyəsi.***

### *Giriş*

Müxtəlif ölkələrin araşdırmaları və paradiqmalar əsas ehtiyacları qarşılamada uğurlu proqram həyata keçirmək üçün müxtəlif ölkə tipləri üçün makroiqtisadi tələblərə baxış tələb edir. İqtisadiyyatın 3 sahəsində planlaşdırma və siyasi müdaxilələr üçün kompleks və hərtərəfli müdaxilələri təmin edən makroiqtisadi quruluş üçün ehtiyac vardır: istehsal, təşkilat və gəlir. Hər 3 sahədə inkişaf əsas ehtiyaclara təsir göstərir. 1.İstehsal yanaşması iqtisadiyyatda məhsuldar resursların bölgüsünün necəliyini göstərir. Bu məhsuldar fəaliyyətlər təşkilatın müxtəlif formalarında həyata keçirilir: Bazar sektoru, dövlət sektoru, ev təsərrüfatı. Ev təsərrüfatı əsas ehtiyac “məhsullarının” istifadəçisi kimi əhəmiyyətli rol oynayır,əsas ehtiyac məhsullarının (təhsil, ərzaq, sağlamlıq kimi) həyat şəraitinin yaxşılaşdırlmasının effektivliyini göstərir. 2. Bu məhsuldar fəaliyyətlər müxtəlif təşkilat formalarında - bazar sektorunda, dövlət sektorunda və ev sektorunda həyata keçirilir. Ailələr qida, sağlamlıq kimi əsas ehtiyac məhsullarının həm istehsalında, həm də bu malların istifadəsində mühüm rol oynayır. Ev təsərrüfatlarının əsas ehtiyac mallarından bu şəkildə istifadə etməsi, həyat şərtlərinin yaxşılaşdırılmasında onların effektivliyini böyük ölçüdə müəyyənləşdirir. Dövlət

sektoru əsas ehtiyaclar sektorlarında da xüsusi əhəmiyyət kəsb edir, çünki normalda əksər səhiyyə və təhsil xidmətlərini göstərir və digər sektorlara da aktiv müdaxilə edir. İstehsal və təşkilat sahələri əsas ehtiyac mallarının tədarükü ilə məşğul olur. 3. Əsas ehtiyaclar üçün planlaşdırma gəlirlərin cəmiyyətdən toplanması və bölüşdürülməsinin analizini də əhatə etməlidir. Çünki gəlir səviyyəsi ailələrin alıcılıq qabiliyyətini və dolayısı ilə onların əsas mal və xidmətlərə olan tələbini müəyyənləşdirir.

İnsan inkişafına edilən investisiyalar da iqtisadi artımı canlandıra bilir. İnsana edilən investisiya, onların daha sağlam, yaxşı bəslənmiş və biliklənmiş hala gəlməsinə yol açır. Beləcə, insanların bacarıqlarında, yaradıcılıqlarında və məhsuldarlıqlarındakı inkişaflar iqtisadiyyata müsbət istiqamətdə təsir edir. Humanitar inkişafa ediləcək yeni bir investisiya müddətində diqqət edilməsi lazım olan bu investisiyanın ölkədəki insanlar arasında bərabər bir şəkildə bölgüsünün təminidir. İqtisadi tələbata uyğun olaraq təhsil sistemi yaxşılaşdırılmalı, iqtisadiyyatdakı investisiya miqdarı artırılmalıdır, tətbiq olunmaqda olan iqtisadi siyasət daha müvəffəqiyyətli bir hala gətirilməlidir, sosial sərmayə keyfiyyətinin daha dəstəkləyici olması təmin edilməlidir.

Əhəmiyyətli olan, fərqli cəmiyyətlərdə milli istehsalda artımın insan inkişafına necə çevrildiyidir. Bəzi cəmiyyətlər adambaşına düşən aşağı gəlir səviyyəsilə belə, yüksək insan inkişafını bacarmışlar. Digər ölkələr isə yüksək gəlir səviyyəsi və sürətli iqtisadi artım ilə eyni nisbətdə bir insan inkişafına çata bilməmişlər. Artım insan inkişafı ilə yan-yana, ancaq, ayrı bir məqsəd olaraq görülməlidir. İqtisadi böyümə və insan inkişafı arasında iki istiqamətli bir əlaqə vardır. Birində ortaya çıxan yaxşılaşma digərinə müsbət töhfəsini verir. İqtisadi artım və insan inkişafı proseslərinin bir-birindən tamamilə ayrı olaraq düşünülməsi mümkün deyil.

**Sosial-iqtisadi inkişaf anlayışının təhlili**

İqtisadi inkişaf Ümumi Daxili Məhsulun artması ilə yanaşı istehsalın və məşğulluğun strukturunda keyfiyyət dəyişikliyini də özündə əks etdirir [7]. Milli istehsalda və məşğulluqda emal sənayesi kimi dinamik sahənin payının artması, kənd təsərrüfatı sahəsinin payının azalması inkişaf etməkdə olan ölkələrin əsas xüsusiyyətlərindəndir. İkinci Dünya müharibəsindən sonra inkişaf etməkdə olan ölkələrdə kasıb təbəqənin həyat şəraitində kəmiyyət baxımından köklü dəyişikliklər müşahidə olunmamışdır. Neft istehsal edən ölkələrin milli gəlirlərində kəskin artım baş versə də iqtisadi strukturda hər hansı dəyişiklik baş verməmişdir. Seers inkişaf anlayışına 3 əlavə komponent daxil etmişdir. Gəlir bərabərsizliyində azalma, yoxsulluq və az qidalanmanın azalması, məşğulluq vəziyyətinin yaxşılaşdırılması [1]. Müasir yanaşmalarda da inkişafın əsas göstəricilərindən biri yoxsulluğun azaldılmasıdır. Sürətli və dayanıqlı inkişaf olmadan, böyümə olmadan yoxsulluq səviyyəsinin azaldılması mümkün deyildir. Sosial-iqtisadi siyasətdə kasıb əhali kateqoriyasının bu böyümənin faydasından nə qədər istifadə edə bilməsi, nə qədər pay götürə bilməsi haqqında müxtəlif yanaşmalar mövcuddur. Sosial-iqtisadi inkişaf cəmiyyətin həyat standartlarının yüksəldilməsi ilə paralel aparılmalıdır. Yerli iqtisadiyyatda davamlı dayanıqlı iqtisadi inkişafın təmin olunması sosial inkişafa əsaslı təsir göstərməkdədir. Sosial inkişaf cəmiyyətin rifah səviyyəsinin artırılması hesabına baş verir. Bu da cəmiyyətdəki hər bir fərdin öz potensiallarından tam istifadə edərək ayrı-ayrılıqda rifah səviyyələrinin yüksəldilməsi hesabına mümkündür. Bu onların cəmiyyətdə özlərini reallaşdımaq üçün bütün maneələrin aradan qaldırılması deməkdir. İqtisadi inkişafın son məqsədi insanın həyat səviyyəsinin yüksəldilməsidir. Sosial inkişaf anlayışı mahiyyət etibarilə insanlara investisiya qoyulması deməkdir və insan inkişafı ilə bilavasitə əlaqədardır. İnkişafın məqsədi insanların həyat səviyyəsini yaxşılaşdırmaq və gələcək nəsillərin həyat keyfiyyətini daha da artıracaq bir mühit təmin etməkdən ibarətdir. Ümumilikdə, inkişaf etməkdə olan ölkələrdə iqtisadi inkişafın son məqsədi insanların, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasıdır.

Sosial inkişafın olması üçün ilk əvvəl iqtisadi inkişaf olmalıdır. İqtisadi artımın yüksək olması dövlətin iqtisadi inkişafına əsas yaradır. Hindistanlı iqtisadçı Amartya Sen bu barədə “iqtisadi artım iqtisadi inkişafın bir aspektidir” deyə qeyd edir [2, s. 236]. İqtisadi inkişaf anlayışı özündə insan kapitalı, əsaslı infrastruktur, regional rəqabətqabiliyyətlilik, iqtisadi dayanıqlılıq, sosial iştirak, təhsil, səhiyyə, savadlılıq kimi kateqoriyaları birləşdirir. İqtisadi inkişaf anlayışı ilə iqtisadi artım anla-

yışı arasında əsaslı fərqlər vardır. Belə ki, iqtisadi artım kəmiyyət göstəricisi olduğu halda, iqtisadi inkişaf özündə həm kəmiyyət, həm də keyfiyyət göstəricilərini əks etdirən kateqoriyadır.

İqtisadi inkişaf səviyyəsinin qiymətləndirilməsində 1970-ci illərə qədər pul kəmiyyətindən istifadə edilmişdir. Ancaq inkişaf pul kəmiyyətilə ifadə edilə bilməyəcək qədər geniş bir anlayışdır. Çünki inkişaf böyümə, bərabərsizliyin azalması və yoxsulluğun qarşısının alınması kimi köklü dəyişmələrə yol açan çoxmiqyaslı bir prosesdir.

Ümumi olaraq baxdıqda sosial-iqtisadi inkişafın əsasında insan inkişafı nəzəriyyəsi dayanır. Məhbub Ul Haq, Üner Kırdar və Amartya Sen tərəfindən işlənib hazırlanan bu nəzəriyyə insanların sərvəti ilə onların yaşayış səviyyəsi arasındakı əlaqəni izah edir. Bu nəzəriyyə ekoloji iqtisadiyyat, dayanıqlı inkişaf, sərvət iqtisadiyyatı və feminist iqtisadiyyatın ideallarını özündə birləşdirir. Bu nəzəriyyənin davamı olaraq inkişaf etdirilən Dayanıqlı İnsan İnkişafı nəzəriyyəsi özündə üç istiqaməti birləşdirir. Bunlar insan iqtisadiyyatı, sosial insan münasibətləri, insan ekologiyasıdır [6, s. 85].

İnsan inkişafı anlayışı ilk dəfə 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən istifadə edilmişdir. BMT-nin 1990-cı ilə aid İnsan İnkişafı Hesabatında ölkələr əsasında edilən analizlərə bağlı olaraq üç tip ölkə olduğu müşahidə edilmişdir. Koreya kimi ölkələrdə iqtisadi artım gəlirin ədalətli bölgüsü ilə birlikdə ortaya çıxarsa, davamlı insan inkişafının daha təsirli olması, Bosniya, Malayziya, Şri-Lanka kimi ölkələrdə artım nisbəti ya da ədalətli bir gəlir bölgüsü olmasa belə, təhsil, səhiyyə kimi sahələrə yaxşı planlanmış hökumət xərcləri reallaşdıran ölkələrin insan inkişafında əhəmiyyətli irəliləmələrinin olması müəyyənləşdirilmişdir. İqtisadi artım uzunmüddətli dövrdə davamlı humanitar inkişaf prosesi üçün tələb olunur, ancaq, bu mühitdə insan inkişafı pozula bilir. Ədalətli olmayan gəlir bölgüsünün və aşağı səviyyədə ictimai xərclərin olduğu bir vəziyyətdə, iqtisadi artım insan inkişafı prosesinin meydana gəlməsinə imkan verməz.

Gəlir bölgüsünün ədalətliliyi təmin olunduqda və ya yoxsulluq səviyyəsi daha zəif olduqda, ayrı-ayrı fərdlər gəlirinin daha çox hissəsini insan inkişafına ayırır. ÜDM-in daha böyük hissəsi hökumət tərəfindən ictimai xərclərə ayrıldıqda, qeyri-hökumət təşkilatlarını maraqlandıran ictimai sərmayə yardımları daha təsirli olduqda, məşğulluğu artıran və işsizliyi azaldan iqtisadi siyasətlər tətbiq olunduqda ÜDM ilə insan inkişafı arasındakı əlaqələr daha güclü olur.

Ümumiyyətlə 20-ci əsrin ümumi görünüşünə nəzər salsaq, dövlət tənzimlənməsinin labüdlüyünü müdafiə edən keynsçilərin, iqtisadiyyata dövlət müdaxiləsinin azaldılmasının tərəfdarları olan neo-klassiklərin hər birinin müəyyən dövr üçün uğurlu olduğunu görə bilərik. Belə ki, 20-ci əsrdə həm tamamilə azad bazar iqtisadiyyatı vasitəsilə iqtisadi partlayış yaşayan Cənubi Koreya, Sinqapur, Honkonq kimi dövlətlərin, həm də planlı iqtisadi islahatlar vasitəsilə iqtisadi inkişafa nail olan Argentina, Sudan, Çili kimi dövlətlərin təcrübəsi bu yanaşmaların situasiyadan və tarixi şəraitdən asılı olaraq uğurlu olduğunu deməyə əsas verir. İqtisadçı Albert Hirşmanın fikrinə görə iqtisadi inkişaf resursların dünyanın kasıb regionları (Afrika, Asiya, Latın Amerikası) üzərində təmərküzləşməsi nəticəsində reallaşa bilər. Onun fikrinə görə bu inkişafın əsasında uzunmüddətli investisiya iqtisadiyyatı dayanır. Nəqliyyat, təhsil, səhiyyəyə qoyulan dövlət investisiyası dayanıqlı iqtisadi inkişaf üçün bazisdir [3, s. 26].

İnkişaf həyat keyfiyyətinin yaxşılaşdırılması deməkdir. Xüsusilə, dünyanın yoxsul ölkələrində daha yaxşı bir həyat keyfiyyəti daha yüksək gəlir mənasında düşünülməkdədir. Ancaq, həyat keyfiyyəti daha çoxunu: daha yaxşı təhsil, daha yüksək səhiyyə və qidalanma standartları, aşağı yoxsulluq, təmiz ətraf mühit, daha çox bərabərlik və imkanlar, daha böyük fərdi azadlıq və daha zəngin bir mədəni həyat məqsədlərini da ehtiva etməkdədir. Əhalinin keyfiyyətini artırmağa yönəlmiş siyasətdə sağlam və iqtisadi yüksək səviyyəli, üstün əqli qabiliyyətli, iş və peşə bilikli əhali nümunəsi olmağı hədəfləyən sistemin mövcudluğu nəzərdə tutulur [8, s.145]. Digər tərəfdən, səhiyyə standartları, təhsil səviyyəsi, iş və peşə bilgisi və təcrübəsi kimi əhalinin keyfiyyətini müəyyən edən bir çox xüsusiyyət, əhalinin keyfiyyətinin iqtisadi rifah səviyyəsindən ciddi şəkildə asılı olduğunu, yəni əhalinin keyfiyyətinin rifah və gəlir səviyyəsinə birbaşa nisbətdə artdığını göstərir. Buna görə adətən əhalinin keyfiyyət problemləri aşağı inkişaf səviyyəsi olan ölkələrdə rast gəlinən

əsas problemlərdəndir. Ənənəvi yanaşmaya görə sürətli iqtisadi artımın özünün rifahı yaxşılaşdıracağı gözlənilməlidir. Ancaq, tətbiqdə bir çox ölkənin bu yanaşmanın tam tərsi bəzi göstəricilərə sahib olduğu diqqət çəkmişdir. Xüsusilə, inkişaf etməkdə olan ölkələrdə sürətli əhali artımı, işsizlik, geniş bir şəkildə görülən səhiyyə problemləri, təhsildən uzaqlıq, yoxsulluq kimi bir çox ictimai problemlərlə qarşılaşması sual işarələrini artırmışdır. Yüksək artım nisbətlərinə baxmayaraq bu ölkələrin ictimai problemlərini həll edə bilmədiyi asanlıqla təyin olunmuşdur. Hal-hazırda inkişaf etməkdə olan ölkələrin əvvəllər müstəmləkə həyatı yaşamış və müstəqilliklərini sonradan qazanmış ölkələr olduğu unudulmamalıdır. İnsanlar arasında fikir ayrılıqları və bunun gətirdiyi bir ictimai narahatlıq mühiti mövcuddur. İdarə olunmağın verdiyi bir əziklik elmin, düşüncə azadlığının inkişafı qarşısında bir maneə təşkil etməkdədir.

**Sosial siyasət mexanizmlərinin iqtisadi inkişafa təsiri**

İnsan cəmiyyətinin müxtəlif inkişaf mərhələlərində formalaşmış sosial siyasət anlayışı ənənəvi bir anlayışdır. Onun fərqli variantlarda müxtəlif tipli cəmiyyətlərdə reallaşması sosial siyasət anlayışına daha geniş aspektdən yanaşmaları şərtləndirmişdir. Sosial siyasət anlayışı həm də cəmiyyətin və dövlətin qarşılıqlı münasibətləri kontekstində qəbul edilən bir anlayış olmaqla, ölkənin konkret tarixi şəraiti, milli xüsusiyyətləri nəzərə alınmaqla formalaşdırılmalı və həyata keçirilməlidir. Sosial siyasət bir tərəfdən dövlət idarəetməsi, dövlət quruculuğu ilə bağlı, digər tərəfdən də elmi məzmun kəsb edən bir anlayışdır. Bu da ondan irəli gəlir ki, sosial siyasət birbaşa cəmiyyətin inkişafı proseslərinə dəlalət edən bir mexanizm kimi müasir dövlətin fəaliyyətinin mühüm tərkib hissələrindən biridir. Ona görə də sosial siyasət cəmiyyətin inkişaf səviyyəsi və tipi ilə sıx surətdə bağlıdır.

Dövlətin həyata keçirdiyi sosial siyasətin əsas məqsədləri sırasında ölkə əhalisinin, vətəndaşların rifahının yüksəldilməsi, cəmiyyətdə sosial bərabərsizliyin, təbəqələşmənin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin azaldılması, cəmiyyətin sosial inkişafı və tərəqqisinə nail olmaqdır. Yuxarıda qeyd etdiyimiz istiqamətlərdə effektiv siyasətin həyata keçirilməsi bütün istiqamətlərdə, o cümlədən iqtisadi, maliyyə, sosial sferalarda balanslaşdırılmış fəaliyyətin təşkilindən əhəmiyyətli dərəcədə asılıdır. Bu məsələlərdə iqtisadi inkişaf, iqtisadi artım faktoru önəmli rol oynasa da, bu sahədəki inkişafın nəticələrinin nə dərəcədə sosial inkişaf məqsədlərinə yönəldilməsi sosial siyasətin səmərəliliyinin artırılmasına əhəmiyyətli dərəcədə təsir edən cəhətlərdəndir.

Hər bir dövlət bu və ya digər dərəcədə öz vətəndaşları qarşısında sosial məsuliyyət daşıyır. Həm də dövlətə müəyyən sosial keyfiyyət, əlamətlər xasdır. Müasir bazar iqtisadiyyatı inkişaf modeli də sosial proseslərin şüurlu, məqsədyönlü və milli mənafelərə uyğun idarə edilməsini və bunun ən müasir və sivil sosial texnologiyalar əsasında həyata keçirilməsi zərurətini reallaşdırır. Söz yox ki, bu idarəetmə məsələlərində məhz dövlətin ideoloji kursu da mühüm əhəmiyyət kəsb edir və önəmli təsir imkanlarına malikdir. Ona görə də sosial dövlətin məqsədləri və funksiyalarının reallaşması mexanizmləri dövlətdə mövcud olan hakim ideologiyadan asılı olaraq fərqlənir və bu, öz əksini dövlətin həyata keçirdiyi sosial siyasət kursunda tapır. Digər tərəfdən, həm də sosial siyasətin ideoloji əsası onun məqsədləri üzərində qurulur ki, bu da öz əksini dövlətin seçdiyi və həyata keçirdiyi sosial siyasət modelində, tipində əks etdirir.

Dövlətin həyata keçirdiyi sosial siyasət kursuna yanaşmalar kontekstində 2 yanaşma tərzi fərqləndirilir. Qərb sosiumuna məxsus olan yanaşma “fərd-sahibkar” xarakterlidir, digər bir yanaşma isə “etatistik-icma” xarakterli yanaşmadır. İkinci yanaşmada dövlətin sosial problemlərin həllində iştirakı məsələsi ortaya çıxır.

1) Birinci qrup belə hesab edir ki, sosial siyasət-bütünlükdə cəmiyyətə xas olan problemlərin həlli ilə bağlı ictimai fəaliyyətdir və onun məqsədi cəmiyyətin inkişafı qarşısında duran məqsədlərə nail olmaq, ona kömək etməkdir.

2) İkinci qrup belə hesab edir ki, sosial siyasət sosial-əmək münasibətlərinin tənzimlənməsinə əsaslanaraq, əmək və kapital münasibətlərinin stabilləşməsi, reqlamentləşdirilməsinə istiqamətlənir.

3) Üçüncü qrup yanaşmaya görə sosial siyasət xüsusilə, daha imkansız, təminatsız, qeyri-əmək

qabiliyyətli əhali təbəqəsinə yönələn ictimai fəaliyyət növü kimi baxılır.

4) Dördüncü qrup yanaşmaya ğörə sosial siyasət cəmiyyətdə fərdi və sosial qeyri-bərabərliyin yaratdığı, neqativ təsirlərin yumşaldılması üçün bir vasitədir. Bu yenidənbölgü tədbirləri vasitəsilə həyata keçirilir (redistributiv sistem vasitəsilə). Əsas məqsəd isə gəlirlərin diferensiasiyasının qarşısının alınmasıdır.

5) Beşinci tip yanaşma sosial siyasət, sosial ədalət və sosial tərəfdaşlıq prinsiplərinə əsaslanır. Əslində, bunlar müasir vətəndaş cəmiyyətinin və sosial dövlətin əsas baza prinsipləridir, dəyər meyarlarıdır.

Əlbəttə, sosial siyasətin mahiyyətinə olan bu yanaşmaların hər birini diqqətlə nəzərdən keçirdikdə, belə bir qənaətə gəlmək mümkündür ki, inkişaf etmiş ölkələrdə həyata keçirilən sosial siyasət modelləri yuxarıda qeyd edilən yanaşmaların hər birinin elementlərini özündə əks etdirir.

Cəmiyyətin rifah səviyyəsini artırmaq istiqamətli olan insan inkişafı siyasətləri bərabərlik, davamlılıq, məhsuldarlıq prinsiplərinin tələblərini yerinə yetirmək məqsədini daşıyır. Həmin siyasətlər insan hüquqları, təhsil, səhiyyə, yoxsulluq, gəlir bölgüsü, məşğulluq, ətraf mühit, qadın hüquqları, mənzil və şəhərləşmə problemlərini əhatə etməklə çoxistiqamətlidir [5].

Sosial siyasətin mahiyyətini və spesifik xüsusiyyətlərini əks etdirən əsas istiqamətləri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Əhali gəlirləri siyasəti;
2. Məşğulluq və sosial-əmək münasibətləri sferasında siyasət (əməkhaqqı, əməyin mühafizəsi və sosial sığorta, əhalinin məşğulluğu sahəsində siyasət);
3. Əhalinin əmək qabiliyyəti olmayan və aztəminatlı təbəqəsinin sosial müdafiəsi sahəsində siyasət (pensiya təminatı, sosial xidmət, sosial müavinət);
4. Sosial sferanın inkişafı istiqamətində həyata keçirilən siyasət (təhsil, səhiyyə, elm, mədəniyyət, idman və bədən tərbiyəsi ilə bağlı siyasət);
5. Sosioekoloji siyasət (ekologiya sahəsində siyasət);
6. İnfrastrukturun müasir inkişafı sahəsində siyasət (mənzil, nəqliyyat, rabitə və yol infrastrukturunun inkişafı sahəsində siyasət);
7. Miqrasiya siyasəti (miqrantların hüquqlarının xarici ölkələrdə qorunması, xarici əmək miqrasiyası, daxili əmək miqrasiyası və s.);
8. Ayrı-ayrı əhali kateqoriyaları ilə bağlı həyata keçirilən siyasət (ailə siyasəti, uşaq və gənclər siyasəti və s.).

Sosial inkişaf prosesini təhlil edərkən erkən yaşlardan başlayaraq təhsilə olan ehtiyac, sağlam uşaq qayğı sisteminin mövcudluğu, yaşayış məkanlarının əlçatanlığı kimi məsələlərə investisiyalar yatırılması mühüm əhəmiyyət kəsb edir. Buna əlavə olaraq, gənclərin inkişafı üçün xidmət və proqramların təklif olunması, ali təhsil imkanlarının yaradılması, yeni və daimi iş yerlərinin açılması, insanların sağlam və aktiv həyat tərzinə təşviq olunması kimi ictimai həyatın digər sahələrinə yatırılan investisiya xüsusilə qeyd olunmalıdır.

Təhsil xidmətləri insanların həyat standartını, imkanlarını və məhsuldarlığını artıran ən əhəmiyyətli faktor olduğundan təhsil sahəsində çatışmazlıqlar aradan qaldırılmalıdır [6, s. 62]. Erkən tədris pillələrinə yatırılan investisiyalar həmin uşaqların gələcəkdə daha çox uğur əldə etməsi üçün zəmanət rolunu oynayır. Uşaqların erkən dönəm təhsillərinə edilən sosial xərclər onların rifah və uğurlarının davamlı və uzunmüddətli olmasına əsas yaradır. Effektiv uşaq qayğı sisteminin mövcudluğu qadın məşğulluğunun artmasına birbaşa təsir göstərir. Valideynlər övladlarına bağçalarda, məktəblərdə qayğı göstərildiyindən əmin olarsa, öz işlərini daha səmərəli həyata keçirərlər. İşçilərin yüksək səmərəliliklə çalışması isə hər bir müəssisənin uğurunun açarıdır. Ayrı-ayrılıqda müəssisə və təşkilatların uğurlu fəaliyyəti ümumilikdə cəmiyyətin rifah halının yüksəlməsinə və sağlam, dayanıqlı iqtisadiyyatın yaranmasına şərait yaradacaqdır. Beləliklə, bu gün uşaq qayğı sisteminin inkişaf etdirilməsi üçün yatırılan investisiya uzunmüddətli dövrdə iqtisadi səmərə olaraq geri qayıdacaqdır.Yaşayış yerlərinin insanlar üçün əlçatanlığı məsələsi sosial proseslərə çox mühüm təsir göstərməkdədir. İnsanların normal ailə həyatının qurulması və uzunömürlü olması

üçün mənzil ehtiyacının təmin olunması vacib şərtlərdən biridir. Mənzillər ailə həyatının əsasıdır; insanların təhlükəsiz yaşaya biləcəkləri, övladlarını böyüdə biləcəkləri, ictimai münasibətlər qura biləcəkləri və yaşlanan valideynlərinə qayğı göstərə biləcəkləri bir məkandır.

Sosial siyasətin formalaşması ictimai-siyasi və makroiqtisadi amillərin təsiri fonunda baş verir. Birinci qrup amillər sosial siyasət modelinin seçiminə təsir göstərir, ikinci qrup amillər isə seçilmiş modelin reallaşması imkanlarını müəyyən edir. Onu da qeyd edək ki, əks əlaqə pirnsipi əsasında bu amillər qrupu bir-birlərinə təsir göstərə bilirlər. Sosial sferada həyata keçirilən fəaliyyətin səmərəliliyi, miqyası makroiqtisadi göstəricilər qrupunun dəyişməsindən asılıdır. Digər tərəfdən də sosial sferanın inkişafı makroiqtisadi sabitliyin və inkişafın təmin olumasında müəyyənedici təsir göstərir. Bu cəhət isə sosial və iqtisadi inkişafın bir-birlərini tamamladığını və birinin digəri üçün təkanverici amil olduğunu şərtləşdirir.

Sosial siyasət bir-birləri ilə qarşılıqlı əlaqəli olan müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir. Bu mexanizmlərin formalaşması və fəaliyyəti ictimai inkişafdan doğan tələbat və meyillərlə müəyyən olunur. Sosial siyasətin əsas mexanizmləri sırasına qanunverici və normativ-hüquqi baza, maliyyə mexanizmləri, büdcə-vergi mexanizmi, inzibati resurslar və siyasi metodlar daxildir. Yəni sosial siyasətin mexanizmləri institusional və qeyri-institusional subyektlərin mürəkkəb sistemini özündə ehtiva edir. Bu subyektlərin qarşılıqlı təsiri cəmiyyətin, onun üzvlərinin, ayrı-ayrı sosial qrupların sosial maraqlarını reallaşdırmağa, dövlətin sosial stategiyasını və sosial proqramları işləyib hazırlamağa və həyata keçirməyə, dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının, vətəndaşların sosial inkişafin məqsəd və vəzifələrinə uyğun fəaliyyətlərinin əlaqələndirilməsinə imkan yaradır.

Sosial siyasət mexanizminin həyata keçirilməsini bir neçə texnoloji fazalara və mərhələlərə ayırmaq olar. Bu mərhələləri aşağıdakı kimi ümumiləşdirmək olar.

1. Mövcud real sosial şəraiti, vəziyyəti elmi-nəzəri cəhətdən öyrənmək və təhlil etmək, bu sahədə əsas problemləri və ziddiyyətləri prinsipial olaraq aşkara çıxarmaq, inkişaf meyillərini və perspektivlərini müəyyən etmək.

2. Sosial siyasətin konkret taktiki və strateji məqsədlərini müəyyən etmək, bu məqsədlərə nail olmanın mümkün metodlarını və vasitələrini axtarıb tapmaq.

3. Hər hansı bir sosial problemin seçilmiş həlli variantının reallaşmasında normativ-hüquqi bazanın təmin olunması.

4. Həm yerli, həm regional, həm də ümumilikdə ölkə səviyyəsində sosial siyasətin reallaşması istiqamətində inzibati-təşkilati və səfərbəredici-təbliğatçılıq tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi.

5. Sosial siyasətin çərçivəsində həyata keçirilən tədbirlərin ümumi gedişinə və onların səmərəliliyinə nəzarətin təmin edilməsi və lazımi korrektələrin edilməsi.

BMT-nin İnkişaf Proqramı sosial-iqtisadi inkişaf səviyyəsini qiymətləndirmək üçün aşağıdakı indikatorları müəyyən etmişdir: 1) Demoqrafik göstəricilər 2) Məşğulluq göstəriciləri 3) Təhsil göstəriciləri 4) Səhiyyə göstəriciləri 5) Maliyyə göstəriciləri 6) Digər rifah göstəriciləri

Demoqrafik ("demos" yunanca xalq) göstəricilər, adından da göründüyü kimi, ölkə əhalisi barəsindəki statistikanı əks etdirməklə yanaşı, əhalinin cins və yaş tərkibindəki meyilləri, doğum-ölüm nisbətini, urbanizasiyanın səviyyəsini, əhalinin sıxlığını, miqrasiya göstəricilərini özündə birləşdirir. Məşğulluq göstəriciləri özündə ölkədəki işsizlik dərəcəsini, müəyyən məşğulluq sahələrində çalışanların göstəricilərini, muzdlu işçilərin ümumi sayını və eyni zamanda qadın işçilərin buradakı payını əhatə edir. Sosial-iqtisadi inkişafın digər bir indikatoru isə təhsil göstəriciləridir. Bu indikator özündə oxuyub-yazma qabiliyyətli əhalinin sayını, qadınların bu göstərici üzrə payını, ali təhsillilərin sayını, ölkənin məktəblərlə təchiz olunma səviyyəsini birləşdirir. Sosial-iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirmək üçün istifadə olunan digər göstəricilər qrupu səhiyyə göstəriciləridir. Burada da əsasən orta ömür müddəti, uşaq ölümlərinin sayı, həkim sayı, bir sıra təhlükəli xəstəliklərin təsiri kimi meyarlar diqqətə alınır. Sosial-iqtisadi inkişaf göstəriciləri ara-

sında ən önəmli qrup maliyyə indikatorlarıdır. Bu göstəricilər qrupu istənilən ölkənin iqtisadi inkişafı haqqında fikir yürütməyə əsas verir. Belə ki, Ümumi Daxili Məhsul, ÜDM-in artım tempi, adambaşına düşən ÜDM, dövlət büdcəsi, büdcə gəlirlərində verginin payı, adambaşına investisiya xərcləri, ticarət balansı, dövlət borcu, adambaşına düşən kredit borcları və s. kimi göstəricilər iqtisadi vəziyyət haqqında təsəvvür yaratmaq üçün yetərlidir. Sosial-iqtisadi inkişaf səviyyəsini müəyyənləşdirən indikatorların son qrupuna isə hər min nəfərə düşən şəxsi avtomobil sayı, içməli su ilə təchiz olunma səviyyəsi, ölkə yollarının asfaltlanması səviyyəsi, hər min nəfərə düşən mobil telefon sayı, internet şəbəkəsi ilə təchizatın səviyyəsi, ərzaq təhlükəsizliyi məsələsi və s. göstəricilər aid edilir [4]. İndikatorların müəyyən edilməsi, onların hərəkət trendləri hər bir dövlət üçün həyati önəm daşıyır. Belə ki, dövlətlər öz iqtisadi siyasətlərini müəyyən edərkən birbaşa olaraq bu göstəricilərə əsaslanır, yürütdükləri siyasət vasitəsilə bu göstəricilərdə müsbət dəyişikliklərin olmasını təmin etməyə çalışırlar. Dövlətin iqtisadiyyata müdaxiləsinin tipi, metodu, alətləri bu dəyişikliklərin hansı dərəcədə olacağını müəyyən edir.

### *Nəticə*

Cəmiyyətlərin inkişaf prosesində insanın bilik, bacarıq və fəaliyyət inkişafı inkişafa təkan verən və formalaşdıran ən vacib amildir. Bu səbəblə təhsilli, sağlam, texnoloji inkişafa açıq və yüksək insan kapitalı bugünkü inkişaf etmiş cəmiyyətlərdə əhəmiyyət qazanmışdır. Başqa sözlə, səhiyyə, bilik, təcrübə və iqtisadi inkişaf, xüsusilə təhsil səviyyəsi əhali siyasətində vacib amillərdir.

İnkişaf etməmiş ölkələrdə ailə üzvlərinin sayının yüksək olması doğuşun yüksək olması səbəbindən ailədə adambaşına düşən gəlirin azalmasına və beləliklə keyfiyyət aspektlərini köçürməzdən əvvəl gəlirlərin ərzaq, mənzil və geyim xərclərinə köçürülməsinə səbəb olur və beləliklə, inkişaf etməmiş ölkələrdə keyfiyyətin yaxşılaşdırılması siyasətinin həyata keçirilməsinə mane olur. Ancaq az inkişaf etmiş ölkələrdə sürətlə artan əhaliyə baxmayaraq iqtisadi inkişafın təmin edilməsi üçün; savadlılıq səviyyəsini artırmaq, peşə təhsili vermək və əmanət və sərmayələri artırmaqla sənayeni inkişaf etdirmək lazımdır. İnkişaf etməmiş ölkələrdə keyfiyyətin artırılması siyasətinə verilən diqqət sayəsində əhalinin artması yavaşlayacaqdır. Başqa sözlə, əhalinin keyfiyyətini artıran siyasət iqtisadi inkişafı sürətləndirəcək və rifah səviyyəsi yüksələcək.

İnsanlara normal həyat üçün, ilk növbədə, insan hüquqları və əsas azadlıqlarının tanınması lazımdır. Əvvəlcə fərdlərin bu hüquqlarla əlaqədar olaraq məlumatlandırılması vacib məsələdir. Fərdlər onlara tanınmış hüquqların təmin edilməsi mərhələsində aktiv olmalıdır. ÜDM-dən regionlarda səhiyyə və təhsil sektorunun inkişafına ayrılan pay artırılmalı, investisiyalar məhsuldar sahələrə yönləndirilməli və xüsusilə qoruyucu səhiyyə xidmətləri dəstəklənməlidir. Humanitar inkişafın bir digər məqsədi, cəmiyyətdəki hər seqmentin həyat standartının yaxşılaşdırılması və cinsi ayrı-seçkilik edilmədən inkişafın təmin edilməsidir. Bu səbəblə, qadın-kişi bütün fərdləri nəzərdə tutan insan inkişafı siyasətlərinə ehtiyac vardır.

Azərbaycanda gender bərabərsizliyi də ölkənin insan inkişafının daha yüksək standartlarına doğru irəliləməsini ləngidən əsas maneələrdən biridir. Uzun illər boyunca yeni doğulmuş körpələr arasında qız uşaqlarının abort olunması gender bərabərsizliyi nisbətini artırmışdır. Qəsdən edilmiş cinsi seçimin mənfi nəticələri dərin araşdırma tələb edir. Doğuş zamanı mövcud cinsi nisbət eyni cür davam etsə qadınların təhsildə, əmək bazarındakı payının azalması, sosial həyatın bütün sahələrində gender müxtəlifliyinin (kişiləşmə) azalması gözlənilir. Qadınların nisbətinin az olması, qadınların ənənəvi reproduktiv vəzifələrini yerinə yetirmələri üçün təzyiqlərin artmasına səbəb ola bilər ki, bu da onların fərdi inkişaf perspektivlərinə və cəmiyyətdəki məhsuldar rollarına zidd olacaqdır.Ətraf mühitin qorunması və yaxşılaşdırılması dünyadakı bütün insanların yaxşı yaşaması və iqtisadi inkişafın təmin edilməsi mövzusunun əsas problemlərindən biridir. Ekologiyanın qorunması ilə həyata keçirilən davamlı inkişaf siyasəti bugünkü və gələcək nəsillərin həyat keyfiyyətini artıracaqdır. Məhz bu səbəbdən ətraf mühitin muhafizə edilməsi həm ayrı-ayrılıqda bütün fərdlərin, həm də dövlətin qarşısında duran mühüm vəzifələrdən biri olmalıdır. Yalnız bu halda insanların həqiqi rifah səviyyəsinin təmin olunmasına nail olmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Adam Szirmai “Socio-economic development”, Cambridge University Press, United Kingdom 2015.
2. Amartya Sen “Resources, values and development”. Boston: 1997, Harvard University Press.
3. A. Hirschman “The rise and decline of development economics”. New-York:1981, Cambridge University press.
4. BMT-nin 2019-cu il üzrə demoqrafik hesabatı. http://esa.un.org/unpd/wpp/Documentation/pdf/WPP202.pdf
5. Gustav Ranis “Human Development And Economıc Growth”, Economıc Growth Center, Yale University, may 2004.
6. J.Schumpeter “The theory of economic development”. Erfurt: 2003, Springer Press.
7. S. Kuznets “Modern Economic Growth”, Yale University Press, London 1966.
8. Üner Sunday “ Demoqrafi”, Hacettepe Universitesi yayınları, Ankara, 1972.

***Сабина Абдулла кызы Джумазада***
***АТМУ, кафедра “Менеджмента”, докторант, преподаватель,***

***Айгюн Назим кызыТахмазлы***
***НАНА, Институт Экономики, докторант***

### Социально-экономическое развитие и пути его обеспечения

***Резюме***

**Цель исследования**: Основная цель исследования - определить сущность концепции социально-экономического развития и найти основные решения для реализации этого развития устойчивым образом.

**Методология исследования:** В ходе исследования вместо количественных показателей использовались качественные показатели. Исследование основано на методах анализа и синтеза.

**Практическое значение исследования:** Определение путей обеспечения социально-экономического развития играет важную роль в стратегиях развития всех стран, в том числе Азербайджана. Потому что развитие это многомасштабный процесс, ведущий к радикальным изменениям, таким как сокращение неравенства, предотвращение бедности и увеличение занятости. По этим причинам исследования имеют большое значение.

**Результаты исследования:** В результате исследования был сделан вывод, что важно повышать уровень жизни всех слоев общества, уделять особое внимание таким вопросам, как здоровье, знания, опыт, образование, доступ к качественним образованиям и медицинским услугам для обеспечения развитие без дискриминации.

**Оригинальность и научная новизна исследования:** Хотя тема социально-экономического развития всегда вызывала интерес и является важной проблемой, различие между концепциями социального и экономического развития и определение зависимости свидетельствует об оригинальности исследования.

***Ключевые слова: социальное развитие, экономический рост, развитие человека, образование, уровень благосостояния.***

***Sabina Abdulla Cumazada***
***ATMU, “Management” department, doctorant, teacher,***

***Aygun Nazim Tahmazli***
***ANAS, Institute of Economics, doctorant***

**Social-economic development and ways of its provision**

***Summary***

**The aim of the study**: The main purpose of the research is to determine the essence of the concept of socio-economic development and to find basic solutions to realize this development in a sustainable way.

**Research methodology:** During the research, qualitative indicators were prefered instead of quantitative indicators. The research is conducted based on analysis and synthesis methods.

**The practical importance of research**: Identifying the ways of ensuring socio-economic development plays an important role in the development strategies of all countries, including Azerbaijan. Because development is a multi-scale process that leads to radical change such as reducing inequality, preventing poverty and increasing employment. For these reasons, research has great importance.

**The originality and scientific innovation of the research:** Although the topic of socio-economic development has always been of interest and is an important issue, the distinction between social and economic development concepts and determination of dependency is an indication of the originality of the research.

**Results of the study:** As a result of the study, it was concluded that it is important to pay special attention to issues such as health, knowledge, experience, education, access to qualified education and health services to improve the standard of living of all level of society and to ensure development without discrimination.

***Key words: social development, economic growth, human development, education, welfare.***